Eurasian Academy of Sciences
Eurasian Business & Economics Journal
2018 Volume:14 S: 41 - 46
Published Online March 2018 (http://busecon.eurasianacademy.org)
http://dx.doi.org/10.17740/eas.econ.2018.V14-04

# CREATING JOBS OF A NEW TYPE IN MODERN TIMES

**Rəşad Şahbaz oğlu Muradov ***

* İqtisad elmləri doktoru, professor, "Biznesin idarə edilməsi" kafedrası , Azərbaycan Dövlət İqtisad Universiteti, (99450)314-64-62

E-mail: rashad_muradov@hotmail.com

Copyright © 2018 Rəşad Şahbaz oğlu Muradov. This is an open access article distributed under the Eurasian Academy of Sciences License, which permits unrestricted use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

**ABSTRACT**

In the article author points to the main purposes and problems, standing before the state in conditions of shaping new economic relations. He has done the attempt to reveal the essence of innovative employment formed under the conditions of innovative economy and based on new achievements in the sphere of sciences and technology. The author tries to prove insolvency of economic development on rich natural resources, exporting raw materials to foreign countries and offers another way of the development, which must rely on new qualitative level of the knowledges of human potential.

**Keywords:** economic reforms, social policy, innovative development, neoeconomy, innovative employment, integral indicators to employment.

## ÇAĞDAŞ DÖNEMDE İSTİHDAMIN YENİ TİPİNİN OLUŞUMU

**ÖZET**

Makalede yazar Azerbaycan Cumhuriyeti'nin başladığı yeni gelişme aşamasının esas hedeflerinden, çok yönlü, verimli ve yenilik odaklı ekonominin oluşturulması koşullarında nüfusun refahının layikli, gelişmiş uluslararası standartlara uygun seviyeye ulaştırılması, ayrıca bilimin, kültürün gelişmesinde, sosyal hayatın tüm yönlerinde yeni gelişmelerin elde edilmesi amacıyla devletimiz karşısında duran görevlerden bahsetmiş ve yeni ekonomik ilişkiler ortamında şekillenen istihdam konularının güncel sorunlarına değinmiştir. Yazar günümüzde, toprağa, doğal kaynaklara, hammadde ihracına dayalı iktisadi gelişmenin kendisini doğrultmadığına dayanarak, hızlı küreselleşme sürecinin gittiği bu ortamda kaliteli insan potansiyeline, bilgi veya yeniliklere dayalı ekonomik gelişme yoluna girdiği gerçeğine ulaştığını iddia ederek yenilikçi istihdam ile ilgili görüşünü paylaşmaktadır.

**Anahtar Kelimeler:** ekonomik reform, sosyal politika, inovasyon gelişimi, neo-ekonomi, yenilikçi istihdam, entegre göstergeler.

# MÜASIR DÖVRDƏ MƏŞĞULLUĞUN YENİ TİPİNİN FORMALAŞMASI

**Xülasə**

Məqalədə müəllif Azərbaycanın Respublikasının qədəm qoyduğu yeni inkişaf mərhələsinin əsas hədəflərindən, çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması şəraitində əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunması məqsədi ilə dövlətimiz qarşısında duran vəzifələrdən bəhs etmiş və yeni iqtisadi münasibətlər şəraitində formalaşan məşğulluq məsələlərinin aktual problemlərinə toxunmuşdur. Müəllif müasir dövrdə, torpağa, təbii ehtiyatlara, xammal ixracına əsaslanan iqtisadi inkişafın özünü doğrultmadığına əsaslanaraq, sürətli qloballaşma prosesinin getdiyi indiki şəraitdə keyfiyyətli insan potensialına, biliyə və ya innovasiyalara əsaslanan iqtisadi inkişaf yoluna qədəm qoymağın vaxtı çatdığını iddia edərək innovasiyalı məşğulluq ilə bağlı mülahizələrini bölüşür.

**Açar sözlər:** iqtisadi islahatlar, sosial siyasət, innovasiyalı inkişaf, neoiqtisadiyyat, innovativ məşğulluq, inteqral göstəricilər.

Ölkəmiz müstəqilliyinə qovuşduqdan sonra милли юндяримiz Heydяr Ялиyevин rяhbяrлиyи altыnda яsasы qoyulan vя юlkямизин rяhbяри, Prezident Илham Ялиyevин bu gün də uğurla davam etdirdиyи иqtисадı инкишаф strategиyasынын яsas mяqsədi игтисадиййатын бцтцн сащяляриндя ислащатлары daha da dяrинlяшdirərək иnnovasиyalы сямиyyяtин иqtисадu bazисини gцclяndirmякdяn ибарятдир.

Hazırda Azərbaycanın qədəm qoyduğu yeni inkişaf mərhələsinin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. Məhz bu məqsədlə də Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Azərbaycan 2020: gələcəyə baxış" adlı İnkişaf Konsepsiyasının hazırlanması barədə 29 noyabr 2012-ci il tarixli Sərəncam imzalamışdır.

Həmin Konsepsiyanın başlıca strateji baxışı mövcud imkanları və resursları nəzərə almaqla Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam şəkildə təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır. Bununla əlaqədar olaraq, Azərbaycanın qarşısında duran əsas məsələ, iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq və onun innovasiya əsaslı irəliləyişini təmin etmək, başqa sözlə, ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına" keçidin əsaslarını qoymaq, bunun üçün isə həlledici amil olan insan kapitalının adekvat inkişafını ön plana çəkməkdir (1, səh.39).

Bununla bağlı olaraq qeyd etməliyik ki, son vaxtlarda ölkənin qeyri-neft sektorunda yeni istehsal sahələrinin açılması və yeni iş yerlərinin yaradılması, istehsal, nəqliyyat və kommunal infrastrukturun misli görünməmiş miqyasda inkişaf etdirilməsi, müasir sosial infrastruktur müəssisələrinin yaradılması, o cümlədən, yeni təhsil, səhiyyə, idman müəssisələrinin inşası bütövlükdə ölkəmizin dinamik və dayanıqlı yüksəlişinin əsasını təşkil etmişdir. Belə ki, 2016-cı il oktyabr ayının 7-də Nazirlər Kabinetinin son 9 ayın yekunlarına həsr olunmuş iclasında president İ.Əliyevin qeyd etdiyi kimi, iqtisadiyyatımız ümumilikdə 0,2 faiz, o cümlədən qeyri-neft sektoru 3,6 faiz , kənd təsərrüfatı isə 2,4 faiz artmışdır. Sosial layihələr uğurla icra edilərək,

iyirmi doqquz məktəb tikilmiş, 485 məktəbdə təmir işləri aparılmış, 33 səhiyyə obyekti inşa olunaraq təmir edilmişdir. Böyük yol layihələri, kənd yolları layihələri icra edilmişdir. Bir neçə şəhərimizdə içməli su layihələri başa çatmışdır. Bütünlükdə doqquz ayda 36 min iş yeri bağlanmış, 154 min iş yeri yaradılmışdır ki, onlardan 121 mini daimi iş yerləridir (8).

Bu amillər iqtisadiyyatımız üçün çox əhəmiyyətli olub, onun çoxşaxəli şəkildə inkişaf etdirilməsinə və gələcəkdə Azərbaycanın neft-qaz amilindən asılılığının aradan qaldırılmasına kömək edə bilər. Qeyd etmək lazımdır ki, bütövlükdə özəl sektor ümumi daxili məhsulda öz yüksək çəkisini saxlamaqdadır. Son məlumatlara görə, ölkə iqtisadiyyatının 83 faizi özəl sektorda cəmləşmişdir ki, bu da Azərbaycanda bazar iqtisadiyyatının prinsiplərinin tam şəkildə bərqərar olunmasına tutarlı bir sübutdur.

Xüsusi qeyd olunmalıdır ki, Azərbaycanda bu illər sosial problemlərin səmərəli həllində dönüşlü irəliləyişə nail olunmuş, əhalinin sosial müdafiəsi sistemi qabaqcıl beynəlxalq standartlara uyğun yenidən qurulmuşdur. Yeni pensiya sistemi fəaliyyətə başlamış, ünvanlı dövlət sosial yardımı, sosial müavinətlər sistemi təsbit olunmuş və inkişaf etdirilmişdir. Uğurlu sosial siyasət nəticəsində yoxsulluq səviyyəsi 2000-ci ildəki 49 faizdən 2014-cü ildə 5,0 faizə qədər azalmış, əhalinin pul gəlirləri 13,8 faiz artmışdır (8).

Heç kimə sirr deyildir ki, bu gün Azərbaycan hökuməti qarşısında duran ən strateji məsələ neft gəlirlərindən cəmiyyətin tərəqqisi naminə səmərəli istifadə edilməsidir. Bu baxımdan, neft gəlirlərindən iqtisadiyyatın qeyri-neft sektorunda məşğulluğun artırılması məqsədilə investisiya kimi istifadə olunmasına böyük ehtiyac vardır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytından əldə etdiyimiz məlumatlara görə keçən ildə ölkədə istehsal olunmuş ÜDM-in 43,2 faizi, iqtisadiyyatda məşğul olanların isə cəmi 1,1 faizi qeyri-neft sektorunun payına düşmüşdür. Məhz buna görə də, ölkənin neftdən əldə etdiyi vəsaitin vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə yönəldilib, "qara" qızılın insan qızılına çevrilməsi, bununla da qeyri-neft sektorunda yeni fəaliyyət sahələrinin yaradılmasının həvəsləndirilməsi və iqtisadi inkişafın sürətləndirilməsi Azərbaycan hökumətinin qarşısında duran ən mühüm məsələlərdən biridir (8).

Bu məsələlərin həlli məqsədilə Azərbaycan hökuməti beynəlxalq təşkilatların (BMT-nin İnkişaf Proqramı və BƏT) dəstəyi ilə Məşğulluq Strategiyası hazırlamış və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 noyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı təsdiq edilmişdir.

Bu dövlət sənədində göstərilir ki, bu gün ölkədə, biznesin inkişafının xammal ixracına yönəlik modelinə real alternativ olaraq, insan potensialının reallaşdırılmasına əsaslanan iqtisadiyyatın innovasiyalara əsaslanan inkişafı götürülə bilər. Çünki strateji resurs kimi elmi biliklərin rolunun artması və müvəffəqiyyətin əsas amili kimi texnoloji innovasiyaların artan təsiri ona gətirib çıxarmışdır ki, bu gün bütün dünyada ölkələrin iqtisadi inkişaf səviyyəsi buradakı innovasiya proseslərinin inkişaf göstəriciləri ilə müəyyən olunur. Çünki müasir dövrdə iqtisadiyyatın rəqabətqabiliyyətliliyi, ilk növbədə cəmiyyətin (kadrların intellektual səviyyəsindən) intellektual inkişaf səviyyəsindən, yeni biliklərə əsaslanan texnologiyaların yaradılmasından və mənimsənilməsindən, çevik informasiya təminatından asılıdır. Artıq elə bir zaman gəlmişdir ki, sürətli qloballaşma prosesinin getdiyi indiki şəraitdə keyfiyyətli insan potensialına, biliyə və ya innovasiyalara əsaslanan iqtisadi inkişaf artıq yeni idarəetmə üsullarının tətbiqini və yüksək intellektə malik kadrların formalaşdırılmasını tələb etdiyinə görə, torpağa, təbii ehtiyatlara, xammal ixracına əsaslanan iqtisadi inkişaf özünü doğrultmur (3, səh.2).

Bu baxımdan yüksək informasiya və intellektual tutumlu innovasiyalı iqtisadiyyatda digər iqtisadi amillərin xarakterində olduğu kimi, məşğulluğun da xarakterində dəyişikliklər baş verir. Artıq bu zaman meydanda məşğulluğun innovasiyalı tipi özünü biruzə verir. O, özündə

əməyin intellektuallaşması, iqtisadi və sosial inkişafın qloballaşması və şəbəkə iqtisadiyyatının inkişafının təsiri altında məşğulluğun patternlərinin dəfələrlə baş verdiyi keyfiyyət dəyişikliklərini əks etdirir. Yeni tip məşğulluğun inteqral keyfiyyətləri kimi innovasiya qabiliyyəti və duyumu, insan kapitalının daimi innovasiyalara uyğunlaşması çıxış edir. İTM, ilk növbədə, neoiqtisadiyyatda formalaşır. O, əməyin məzmununun və xarakterinin dəyişilməsi, onun intellektuallaşması, əsas istehsal amillərinin qarşılıqlı təsir üsullarının dəyişilməsi ilə sıx bağlıdır. İntellektual əmək özündə çoxlu müxtəlif funksiyaları əks etdirən mürəkkəb bir sistemi birləşdirərək, yaradıcı, kreativ, kollektiv, fərdi və digər xüsusiyyətlərə malik ola bilər. İTM əsasən, təhsil, elm (fundamental biliklərin və innovasiyaların), İKT sahələrində, habelə iqtisadiyyatın bütün sektorlarının idarəedici strukturlarında və innovasiya elementlərində bərqərar olur ki, bu da yeni tip məşğulluğun ənənəvi sahələrə diffuziyasını əks etdirir. İTM-in yeni iqtisadiyyatda təşəkkül tapmasında əsas rolu əvvəllər ikinci dərəcəli sayılan intellektual xidmətlər bazarının inkişaf etməsi tutur (4, səh. 6).

İnnovasiya tipli məşğulluğun formalaşması prosesi bütün dünyada olduğu kimi, Azərbaycanda da başlanmışdır, lakin burada bu proses şox süst və ləng gedərək, institutsionallaşmaya və xüsusi stimullaşdırma mexanizmlərinə ehtiyac duyur. Bununla bağlı olaraq innovasiya istiqamətində məşğulluğun inkişaf strategiyası nəinki neoklassik paradiqmanın müddəalarının yenidən nəzərdən keçirilməsini, həm də nəzəri-metodoloji səviyyədə yeni məsələlərin təhlili və sistemləşdirilməsini tələb edir ki, bu da məşğulluğun idarə edilməsi sistemi qarşısında, onun ənənəvi istiqamətlərinin keyfiyyətcə dəyişdirilməsini tələb edən yeni vəzifələr qoyur.

İnnovasiyalı-kreativ iqtisadiyyatda məşğulluğun artması, nəinki neoklassik paradiqmanın müddəalarının yenidən araşdırılmasını, məşğulluq sferasında yeni hadisələrin nəzəri-metodoloji səviyyədə təhlili və sistemləşdirilməsini tələb edir, həm də məşğulluğun idarə edilməsi sistemini yeni "çağırışlar" qarşısında qoyaraq, iqtisadi sistemin müxtəlif səviyyələrində innovasiyalı məşğulluğun qiymətləndirilməsi metodologiyasının işlənilməsini aktuallaşdırır.

İTM-in tədqiqi zamanı nəinki onun keyfiyyət təhlilinin aparılması, həm də müvafiq meyarlarının və göstəricilərinin təsbit olunması zəruriliyi meydana çıxır. İTM mürəkkəb çoxsəviyyəli hadisə olduğundan, onun qiymətləndirilməsində müasir əməyin iqtisadiyyatında istifadə olunan ənənəvi göstəricilərdən istifadə olunması bir sıra çətinliklərlərə səbəb olur. Bu çətinliklərin səbəbi ondadır ki, iqtisadi məkanın müxtəlif səviyyələrində məşğulluq sisteminin innovasiyalı fəaliyyətinin son nəticəsi (yəni sistemin "çıxış"xarakteristikası) özündə bir çox amillərin (mövcud innovasiya və investisiya mühiti, iş yerləri sisteminin vəziyyəti, məqsədyönlü investisiyalar, qloballaşmanın təsiri və istehsal prosesinin təşkili və sair) eyni vaxtdakı təsirinin nəticəsini əks etdirir (5, səh.76).

İnnovasiyalı iqtisadiyyatın qiymətləndirilməsinin mövcud metodikasının təhlili göstərir ki, burada məşğulluqla bağlı göstəricilər (əsasən tədqiqatlarla məşğul olan personalın sayı və məşğul olan əhalinin təhsil göstəriciləri qeyd edilmişdir) kifayət qədər əhatə olunmamışdırlar. Həmin bu metodologiyada məşğulluq sferasında baş verən proseslərin qiymətləndirilməsi daxildə, sanki "qara qutu"-nun içərisində baş verdiyindən həmin qutunun quruluşu və məzmunu ilə əlaqədar heç bir tədqiqat işi aparılmamışdır. İTM-in qiymətləndirilməsi üçün tətbiq olunan həmin bu "qara qutu" modeli özündə "giriş" və "çıxış" substansiyalarını ehtiva edir.[1] Əgər "giriş" nöqtəsi innovasiyalı məşğulluğun inkişafına yönəldilən xərclər üzrə göstəricilər (ali və orta təhsilə, elmə, intellektual əmək sahiblərinin əmək haqlarına yönələn xərclər) əsasında qiymətləndirilirsə, onda "çıxış" nöqtəsi yüksək texnologiyalı sahələrin, habelə peşəkar və sosial

[1] Ölkənin innovasiyalı inkişafının qiymətləndirilməsi üçün istifadə olunur

xidmətlər sferasının əlavə dəyər göstəriciləri ilə qiymətləndirilir. Lakin bu cür yanaşma qüsurlu olub, şərti xarakter daşıyır, çünki bu zaman bir çox hallarda müxtəlif istiqamətlərdə çəkilən xərcləri multiplikasiya edəcək institutsional amil və mexanizmlər nəzərə alınmır. Ölkədəki məşğulluq sferasının vəziyyətini xarakterizə edən bir sıra ənənəvi göstəricilər (məsələn, məşğul əhalinin sayı, məşgulluğun səviyyəsi və s.) məşğulluğun səmərəliliyi və innovasiyalı xarakteri haqqında heç bir bilgi verə bilmədiyindən İTM sisteminin vəziyyətini inteqral qiymətləndirmək üçün istifadə edilə bilməz. Bu keçid dövründə məşğulluq sferasını xarakterizə edən yeni statistik göstəricilər (məsələn, "ifrat məşğulluq indeksi") meydana çıxırlar. Hesab edirik ki, innovasiyalı məşğulluğun inteqral xarakteristikasını əldə etmək üçün iş yerlərinin kəmiyyət və keyfiyyətini, onların dinamikasını, strukturunu, ölkə ərazisində bərqərar olmuş həmin strukturun iqtisadiyyatın inkişafının müasir mərhələsinə, onun tərəqqisinə və səmərəli məşğulluğa səbəb olub-olmadığını təhlil etmək lazımdır. Düşünürük ki, iqtisadiyyatın innovasiyalı "insan" potensialının bir çox ənənəvi göstəriciləri bizim tədqiqatımızın predmeti baxımından bəzi diskusiyalara səbəb ola bilər. Məsələn, yüksək elmi və intellektual potensiala malik olan Rusiya kimi bir ölkə, innovasiyalı iqtisadiyyatın inkişafı göstəricilərinə və bilik iqtisadiyyatı indeksinə görə dünyada heç də ilk yerləri tutmur. Belə ki, burada üçüncü təhsildə məşğul olanların sayı 68% təşkil edərək, Böyük Britaniya, Almaniya və Fransaya nisbətən iki dəfə çox olmuşdur. Çox da səmərəli iqtisadiyyata malik olmayan və dərin resesiyadan yenicə qurtulmuş ölkə üçün bu göstərici çox valehedicidir. Bu zaman məşğul olanların içərisində 23%-dən çoxunun ali təhsilli olduğu bildirilir. Tədqiqatçıların fikrincə, təhsil potensialı istifadə edilməyən işçilərin 15%-i xidmət sferasının, 20%-i kənd təsərrüfatının və 40%-i ixtisassız fəhlələrin payına düşür. Bu hal, onu göstərir ki, burada çalışan işçilərin ya təhsil səviyyəsi aşağıdır, ya da bu sahədə çalışanların əməyindən rasional istifadə edilmədiyindən onlar yüksək təhsilə malik olmalarına baxmayaraq, aşaği ixtisaslı işlərdə çalışmaq məcburiyyətindədirlər (6, səh.21).

Makrosəviyyədə sosio-mədəni göstəricilər şəklində məşğulluğun innovasiyalılığının qiymətləndirilməsi üçün sosial əhval-ruhiyyəni, iqtisadi optimizmi əks etdirən indekslərdən istifadə oluna bilər. Məsələn, İƏİ (istehlakçıların əhvalı indeksi), ŞGİ (şəxsi gözləmələr indeksi), İGİ (ictimai gözləmələr indeksi), UİGİ (uzunmüddətli istehlakçı gözləmələri indeksi). Bu indekslərin uçotunun əhəmiyyəti, fikrimizcə, iqtisadiyyatın uğurlu inkişafının, məhz ölkə əhalisinin öz ixtisasını artırmaq, yeni biznes qurmaq hesabına yeni keyfiyyətli həyat şəraitinə və yüksək istehlak səviyyəsinə can atmasından birbaşa asılılığında özünü biruzə verir.

İTM kateqoriyasının mürəkkəbliyi (çoxcəhətliliyi) və onun iqtisadi sistemin müxtəlif səviyyələrində təhlilinin mümkünlülüyü onun sərəncamda çoxlu dəyişənlərinin olması ilə izah olunur ki, bunlar da özlərində çoxlu tərkib elementləri ehtiva edirlər. Bu zaman həmin elementlərin daha yüksək göstəriciləri heç də məşğulluğun "innovasiyalılığını" xarakterizə edən yüksək inteqral göstəricini əks etdirmir. Həmin dəyişənə daha aşağı göstəriciyə (reytingə) malik olan digər dəyişənlər mənfi təsir edə bilərlər (7, səh. 89).

İTM-un səmərəliliyi əldə olunmuş sosial-iqtisadi səmərənin (yəni seçilmiş məqsədə çatmağın dərəcəsi), onun əldə edilməsinə çəkilən xərclərə nisbəti ilə müəyyən olunur. Deməli, səmərəli məşğulluq zamanı müxtəlif subyektlərin innovasiyalı potensialı innovasiyaların meydana çıxmasına müvafiq olaraq tam şəkildə istifadə olunur.

Məşğulluğun səmərəliliyinin qiymətləndirilməsi zamanı bütün subyektlərin – həm işverənlərin, həm də işçilərin iqtisadi maraqları nəzərə alınmalıdır, çünki bu maraqlar öz mahiyyətinə, gözləntilərinə və göstəricilərinə görə bir-birlərindən xeyli fərqlənirlər. Belə ki, işverənlər üçün işin son nəticəsi kimi əmək məhsuldarlığı, mənfəət, istehsal ehtiyatlarından istifadənin səviyyəsi və sair göstəricilər çıxış edirsə, işçilər üçün bu göstəricilər gəlirlərin səviyyəsi, sosial nemətlər, əlverişli əmək şəraiti, öz kreativ potensialının reallaşdırılması potensialı, insan kapitalının yığımı və yüksək həyat səviyyəsidir. Məşğulluq münasibətlərinin

subyektlərinin mövqesindən yanaşdıqda İTM-in inkişafı məşğulluğun səmərəliliyi meyarlarının siyahısını genişləndirir (7, səh.105).

Hesab edirik ki, İTM-in indikatorlarının düzümünə iki cür yanaşma olmalıdır:

1. İTM-in ayrı-ayrı aspektlərini əks etdirən indikatorların sisteminin qurulması (göstəricilərin alt sistemləri: texniki, informasiyalı, sosial-iqtisadi və institutsional);

2. Bu və ya digər səviyyədə məşğulluğun innovasiyalılığının dərəcəsi haqqında fikir söyləmək üçün əsas olan inteqral (kompleks) indikatorun qurulması. İnteqral indikatorun qurulması bir neçə qrup göstərici əsasında da formalaşdırıla bilər.

Göründüyü kimi, İTM-in formalaşması prosesi ümumdünya meyli olub, ölkənin siyasi-iqtisadi həyatındakı uzunmüddətli meylləri şərtləndirir. Müasir tədqiqatların çox olması hələ onların kifayət etməsinə dəlalət etmir, çünki hər hansı elmi ümumiləşdirmələr aparılması üçün xeyli vaxt tələb olunur. Qısa zaman kəsimində bir sıra məşğulluq mərkəzləri tərəfindən xeyli sayda məşğulluq konsepsiyaları işlənib hazırlansa da, bunlar qısamüddətli xarakter daşımış və burada məşğulluğun modellərinin və uzunmüddətli nisbətlərinin sistemli təhlilinin, habelə proqnozlaşdırılmasının fundamental və elmi-təcrübəvi problemləri, işsizliyin digər makroiqtisadi göstəricilərlə müqayisəli təhlili və sair məsələlər öz əksini tapmamışdırlar. Nəticə etibarilə sadəcə dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatındakı texnoloji innovasiyalara uyğun olaraq innovasiya məşğulluğunun meylləri aşkar edilmişdir.

**Резюме**

В статье автор указывает на основные цели и задачи, стоящих перед государством в условиях формирования новых экономических отнощений. Он сделал попытку для раскрывания сушности инновационной занятости, формирующегося в условиях инновационной экономики, на основе новых достижений в области науки и техники. Автор старается доказать несостоятельность экономического развития на основе богатых природных ресурсов, експорта сырья в зарубежные страны и предлагает иной путь развития, которая должна основыватся на новый качественный уровень знаний человеческого потенциала.

Ключевые слова: экономические реформы, социальная политика, инновационное развитие, неоэкономика, инновационная занятость, интегральные показатели занятости.

## REFERENCES

- Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası. Bakı, 39 s.
- Əmək bazarı. Statistik məcmuə. Bakı, Səda, 2013, 161 s.
- Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər). Bakı. 2007, 145 s.
- Инновационный путь развития для новой России / Под ред. В.П. Горегляда. – М.: Наука, 2005, стр.145.
- Neumark D. Employment Relationships in the New Economy / D. Neumark, D. Reed // NBER Working Paper. 2002. No. 8910. April.
- Hecker D. High-Technology Employment: A Broader View / D. Hecker // Monthly Labor Review. 1999. June. P.18-28.
- Санкова Л.В. Паттерны занятости в современной экономике/ под ред. А.О. Блинова. Саратов: Сарат. гос. техн. ун-т, 2004.-С.120.
- www.president.az